SABAH | Azərbaycan Respublikası Təhsil Nazirliyi | BRITISH COUNCIL

# Your English Voice!

***Hörmətli iştirakçı,***

*Sizə müxtəlif məzmunlu 6 mövzu təqdim olunmuşdur. Mövzuların hər biri dünya miqyasında müzakirələrin aparıldığı və cəmiyyətlərin diqqət mərkəzində olan sahələri əhatə edir. Mövzulardan birini seçərək problem haqqında məlumat vermək və onun həlli üçün öz mövqe və təkliflərinizi təqdim etməlisiniz.*
*Bunun üçün maksimum 3 dəqiqəniz var!*

**Öz nitqinizi bu iki əsas hissəyə nəzər yetirərək qurun:**

**1. Problemin təqdimatı.**
Problemin mahiyyətinə aydınlıq gətirin. Seçdiyiniz problemin mühümlüyünü və qloballığını auditoriyaya çatdırın. Nitqinizi qurarkən ən son yenilənmiş statistikadan, real faktlara əsaslanan və rəsmi mənbələrdən əldə olunmuş məlumatlardan istifadə etməyə çalışın. Nitqinizi daha da maraqlı etmək üçün şəxsi təcrübəniz və həyat hekayənizi də bölüşə bilərsiniz.

**2. Problemin həlli.**
Problemin həll yolunu auditoriyaya təqdim edin. Həllin mümkünlüyü və üstünlükləri haqqında məlumat verin. Təklif etdiyiniz həll yolunun effektivliyinə auditoriyanı əsaslandırılmış dəlillərdən istifadə edərək inandırmağa çalışın.

**Nitqinizi ardıcıllıqla qurun:**

***1. Giriş***
- Auditoriyanı salamlayın;
- Özünüzü təqdim edin;
- Mövzunu auditoriyaya təqdim edin.

***2. Əsas hissə***
- Problemi təqdim edin;
- Problemin həll yolunu açıqlayın.

***3. Yekun***
- Nitqinizi ümumləşdirici fikirlər ilə bitirin.

**Nitqinizi qurarkən aşağıdakılara diqqət yetirin:**
- Nitqin səlisliyi;
- Nitqin ardıcıllığı;
- Lüğətin zənginliyi;
- Tələffüz;
- İntonasiya.

***Uğurlar azru edirik!***